# Aprel zəfərinin ildönümü qeyd olunub

Silahlı Qüvvələrimizin 2016-cı ilin aprel ayında həyata keçirdiyi əks-hücum əməliyyatı zamanı şəhid olmuş Aprel döyüşçülərinin anım mərasimi keçirilib. Tədbir iştirakçıları əvvəlcə Şəhidlər xiyabanını ziyarət ediblər.



Qəbələ Mədəniyyət Mərkəzində keçirilən mərasimdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların əməkdaşları, təhsil, səhiyyə, mədəniyyət işçiləri, ictimaiyyətin nümayəndələri və Aprel döyüşlərində şəhid olmuş həmyerlimiz, leytenant Sahil Həsrət oğlu Şirinovun ailə üzvləri iştirak ediblər.

Şəhidlərin ölməz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra, tədbiri açan RİH-nin başçısı Səbuhi Abdullayev 2016-cı ilin Aprel döyüşlərindən danışıb, Sahil Şirinovun ailəsinə Allahdan səbir diləyib, dövlətimizin daim onların yanında olduğunu vurğulayıb.

İcra hakimiyyətinin başçısı çıxışında Aprel döyüşlərində erməni işğalçılarının cəbhədə törətdikləri təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbçilərimizin döyüşlərdə göstərdiyi şücaətdən və qazanılan qələbənin əhəmiyyətindən danışıb. O, erməni silahlı qüvvələrinin bu döyüşlərdə böyük itkilərə məruz qaldığını, düşmənin 320-dən artıq canlı qüvvəsinin məhv edildiyini və 500-dən artıq erməni hərbi qulluqçusunun yaralandığını bildirib. Natiq qeyd edib ki, düşmənin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarılmış, düşmən ordusunun Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı məhv edilmiş və Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə olunmuşdur.

Rayon icra hakimiyyətinin başçısı həmin döyüşlərdə həmyerlimiz, leytenant Sahil Həsrət oğlu Şirinovun da igidliklə həlak olduğunu qeyd edib, onun göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medal ilə təltif olunduğunu diqqətə çatdırıb.

RİH başçısının çıxışında Aprel döyüşlərinin çox böyük tarixi əhəmiyyətə malik olduğu, bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinə start verildiyi səslənib. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükənin tamamilə aradan qaldırıldığı, dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə artıq bu kəndin əhalisinin 23 ildən sonra doğma torpaqlarına qayıdışının işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına xalqımızda dərin inam yaratdı vurğulanıb.

Anım mərasimində çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova, Kürd kənd tam orta məktəbin müəllimi Ümudvar Həsənov, Aprel döyüşçüsü Xəzər Salamzadə, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İB-nin rayon şöbəsinin sədri İmran Mustafayev, Azərbaycan Yazıçılar Birliyinin üzvü Vüsal Əliyev, Bum qəsəbə tam orta məktəbin müəllimi Tofiq Qaragözov, Sahil Şirinov haqqında yazılmış "O, el üçün doğulmuşdur" kitabının müəllifi Bəydadaş Cəfərli və başqaları əsgərlərimizin cəbhədə göstərdiyi qəhrəmanlıqlardan söz açıblar. Çıxış edənlər igid Azərbaycan əsgərlərinin işğal altında olan torpaqlarımızı tezliklə azad edəcəklərinə əminliklərini ifadə ediblər.

Sonra Səbuhi Abdullayev Sahil Şirinovun atası Həsrət Şirinova, Aprel döyüşçülərindən Xəzər Salamzadəyə və Arzu Allahverdiyevə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin "Vətənpərvərlik işində xidmətlərinə görə" medallarını təqdim edib.

Tədbirdə şəhid Sahil Şirinovun təhsil aldığı Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin şagirdləri mövzu ilə bağlı ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

Sonda çıxış edən şəhidin validеynləri Şəhla və Həsrət Şirinovlar dövlətimizin başçısına şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya görə təşəkkürlərini bildirib, tədbirin təşkilinə görə rayon icra hakimiyyətinə minnətdarlıqlarını ifadə ediblər. Onlar Vətən uğrunda canlarından keçən qəhrəman övladlarımızın qanının yerdə qalmayacağına, düşməndən amansız qisas alınacağına, torpaqlarımızın tezliklə işğaldan azad olunacağına əminliklərini bildiriblər.

**"Qəbələ"**

# Böyük sevinc hissi ilə qarşılanıb

Azərbaycanın 10 milyonuncu vətəndaşının dünyaya gəlməsi ilə əlaqədar rayonumuzda silsilə tədbirlər keçirilir.

Belə tədbirlərdən biri də rayon icra hakimiyyətinin təşkilatçılığı ilə aprelin 8-də keçirilib. Tədbirdə rayonun idarə, müəssisə, təşkilatların kollektivləri, məktəblilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.






Qəbələ Mədəniyyət Mərkəzində təşkil olunan tədbirdə qeyd edilib ki, son illərdə Azərbaycanın əhalisinin sayı sürətlə artır. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə ölkəmizdə qazanılan uğurlu iqtisadi inkişaf, sabitlik və əhalinin sosial rifahının yaxşılaşması istiqamətində görülən böyük işlərin nəticəsidir.

Diqqətə çatdırılıb ki, aparılan sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi, ölkəmizin dayanıqlı inkişafı təmin edilib, müsbət demoqrafik şərait bərqərar olub.

Ədəbi-bədii kompozisiyada səsləndirilib ki, həyata göz açan hər bir körpə dünyaya ümid, sevinc və sevgi, torpağa basdırılan hər fidan isə təbiətə yeni təravət və gözəllik gətirir. Süd qoxulu körpələr dünyamızın, həyatımızın, ana torpağa basdırılan ağac tingləri isə təbiətin davamı və sabahıdır...

Bayram tədbiri konsert proqramı və fleşmobla davam edib.

Tədbir iştirakçıları rayonun incəsənət ustalarının və məktəblilərin ifasında şən mahnılar dinləyib, bir-birindən maraqlı rəqslərə tamaşa ediblər.

Tədbir tamaşaçılara xoş ovqat bəxş edib.

**"Qəbələ"**

# Ağacəkmə kampaniyası keçirilib

***Son illər ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, turizm sahəsində orta və kiçik sahibkarlığın inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması sahəsində məqsədyönlü işlər görülməkdədir.***

***Turizmin prioritet sahələrindən biri də bölgələrdə təbiətin ekoloji cəhətdən təmizliyinin qorunmasıdır. Bu məqsədlə rayonumuzda meşə massivlərinin mühafizəsi, məişət tullantılarından təmizlənməsi və yaşıllaşdırma işlərinin daha da genişləndirilməsi rayon rəhbərliyi tərəfindən daim nəzarətdə saxlanılır.***



Qəbələ Rayon İcra Hakimiyyətinin və Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzinin birgə təşkilatçılığı ilə aprelin 9-da rayonumuzda ağacəkmə aksiyası keçirilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Bu yaz özün bir təbiət yarat!" devizi ilə keçirilən ağacəkmə aksiyası zamanı Nohurqışlaq inzibati ərazisində 800-dən çox müxtəlif növ ağac tingləri əkilib.

Ağacəkmə kampaniyasında regional meşə təsərrüfatı mərkəzinin tingçilik təsərrüfatında yetişdirilmiş sərv, göyrüş, cökə və şam ağaclarından istifadə olunub.

Aksiyada 220 nəfər iştirak edib.

Regional meşə təsərrüfatı mərkəzindən verilən məlumata görə bu il əlavə olaraq daha 30 hektar sahədə ağac tinglərinin əkilməsi nəzərdə tutulub.

**"Qəbələ"**